

**ZƏHRA QULİYEVA,**
Qadın Problemləri üzrə
Dövlət Komitəsinin sədri

# HEYDƏR ƏLİYEVİN RƏHBƏRLİYİ ALTINDA HƏYATA KEÇİRİLƏN SİYASƏTDƏ QADINLARIN ROLU

Bugünkü həm siyasi, həm iqtisadi çətinliklər dövründə qadınlarımız cəmiyyətin həyatında çox fəal rol oynayaraq, övladlarının sabahı uğrunda səylə çalışırlar. Onların geniş fəaliyyəti üçün ölkədə hər cür şərait yaradılmışdır. Və çox xoş bir qismətdir ki, onları ürəkdən dəstəkləyən, qayğılarını çəkən, ən əsası isə həqiqi qiymətini verə bilən dövlət başçımız var. Axı yaxşı bilirik ki, hər hansı bir dövrdə qadına münasibət ilk növbədə ölkə başçısının qadın siyasətindən asılıdır. Bu sahədə bizim qadınları bəxti gətirmiş hesab etmək olar. Çünki bu gün bizim müstəqil dövlətimizin başında bəşər tarixinin XX əsrdə yetişdirdyi ən böyük şəxsiyyət, ən böyük dövlət xadimi, fitri istedada malik siyasi lider, Azərbaycan xalqının əvəzedilməz oğlu Heydər Əliyev cənabları durur. Tarixi şəxsiyyətlər tarixin məhək daşına çevrilərək zaman getdikcə yaddaşlara həkk olur, əsrlər boyu əbədiyaşar bir varlığa dönürlər. Dünyanın siyasət nəhənglərinin belə həsəd apardıqları Heydər Əliyev cənabları məhz belə şəxsiyyətlərdəndir.

Xalqımızın hüquq və azadlığını daim qorumuş, onun milli şüurunun formalaşmasında, maariflənməsində böyük xidmətlər göstərmiş Heydər Əliyev hansı dövrdə işləməsindən asılı olmayaraq, qadın hərəkatını, qadınlarla bağlı məsələləri daim diqqət mərkəzində saxlamışdır. O, 1969-cu ildə respublikamıza ilk dəfə rəhbər təyin olunanda, qadın problemləri, qadınların inkişafı, onların irəli çəkilməsi haqqında dünya miqyasında söhbət gedirdi. Elə həmin dövrdə Heydər Əliyev cənabları qadınlara diqqət və qayğı göstərərək onların bilik və bacarıqlarına görə, istedad və intellektinə görə irəli çəkməyə, yüksək vəzifələrə təyin etməyə başlamışdı. O dövrdə bəzi rayonlara rəhbərlik qadınlara tapşırılmışdı. Nazir və nazir müavinləri arasında neçə-neçə qadın var idi. Respublikamızın tarixində ilk dəfə olaraq ali məktəblərə qadın rektorlar təyin edildi. Hələ o dövrdə qadınlara fəxri adların verilməsində, fərqlənən qadınların mükafatlandırılmasında, orden-medallarla təltif olunmasında səyini əsirgəməmişdi. Həmin illərdə neçə-neçə qadın Sosialist Əməyi Qəhrəmanı, Qəhrəman ana fəxri adlar almışdı. Bütün bunlar ölkə başçısının xalqına göstərdiyi sonsuz diqqət və qayğının nəticəsi idi.

Dünya miqyasında ilk dəfə olaraq, qadınlar və onların problemləri haqqında məsələ 1975-ci ildə həmin ilin qadın ili elan olunması ilə qaldırıldı. Elə həmin il Mexikoda Qadınların ümumdünya konfransı çağrıldı.



II ümumdünya qadın konfransı 1980-ci ildə Danimarkada, III 1985-ci ildə Nayrobidə, IV isə Pekində 1995-ci ildə keçirildi. Hər dörd konfransın məramı Bərabərlik, inkişaf və sülh idi. Ancaq qadın və kişi hüquqlarının bərabərliyi, gender məsələləri ön plana çəkilirdi. Azərbaycan qadınlarının bu bərabərliyi hələ 1918-ci ildə ölkəmiz müstəqilliyini ilk dəfə əldə etdiyi dövrdə bərqərar olmuşdu. Bu bərabərlik SSRİ dövründə də davam etdi. Ancaq dünyada elə dövlətlər var ki, həmin bərabərliyi 1950-60-cı illərdə və yaxud daha gec əldə etmişlər.

Azərbaycan müstəqilliyini ikinci dəfə əldə etdikdən, möhtərəm Heydər Əliyev cənabları ikinci dəfə hakimiyyətə gəldikdən sonra (1993-cü il) ölkəmizdə qadın problemlərinə daha böyük diqqət yetirilməyə başlandı. Onların hüquq bərabərliyi, cəmiyyətdəki aparıcı rolu 1995-ci ildə qəbul olunmuş Konstitusiyamızda da öz əksini tapıb.

1995-ci ildə Pekində keçirilən IV ümumdünya qadın Konfransında iştirak etmək üçün Dövlət Milli Şurası yaradıldı.

1995-ci il Azərbaycan qadınları üçün əlamətdar olmuşdur. Həmin il Möhtərəm Prezidentimizin fərmanı ilə Azərbaycan Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğvi Konvensiyasına qoşulmuşdur. Dünyada inkişaf etmiş elə dövlətlər var ki, onlar hələ də bu konvensiyaya qoşulmayıblar. Çünki onlar həmin konvensiyaya qoşulmağa hazır olmadıqlarını etiraf edirlər. Konvensiyaya qoşulmaq elə də asan iş deyil, bunun üçün respublikada əlverişli şərait olmalı və müəyyən vəzifələr yerinə yetirilməlidir. Dövlətimizin keçid dövründə yaşamasına, ölkəmizdə müharibə getməsinə torpaqlarımızın 20 faizinin düşmən tapdağı altında olmasına, bir milyondan artıq qaçqın və məcburi köçkünümüzün olmasına baxmayaraq bizim bu konvensiyaya qoşulmağımız Prezident Heydər Əliyevin şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur.

Ölkəmiz bu konvensiyaya qoşulandan sonra görülən işlər haqqında BMT-yə hesabat verildi. Hesabat yüksək qiymətləndirildi və Azərbaycanın Xarici İşlər Nazirliyinə təşəkkür məktubu gəldi.

Möhtərəm Prezidentimiz qadınlarla bağlı məsələlərə böyük diqqət yetirir. O, qadınların problemlərini dövlət səviyyəsində həll etmək məqsədi ilə xüsusi fərmanla 1998-ci yanvarın 14-də Azərbaycanda Qadın Problemləi üzrə Dövlət Komitəsiini yaratdı. Qeyd etməliyik ki, bir çox ölkələrdə, hətta MDB ölkələrində belə xüsusi qadın komitələri yoxdur.

Komitə yaranandan sonra Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı tərtib edildi. Bu planın tərtibində, Pekin konfransının 12 müddəası nəzərə alınaraq, bütün dövlət qurumları və qeyri-hökumət qadın təşkilatlarının nümayəndələri iştirak ediblər. Milli Fəaliyyət Planı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 33 saylı qərarı ilə 2000-ci il martın 6-da təsdiq edildi. Həmin gün Prezidentimizin imzaladığı Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında fərman XX əsrdə əldə olunmuş nailiyyətlərə varislik prinsipi baxımından yanaşma və gələcəkdə inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün əvəzedilməz bir sənəddir.

Qloballaşan dünyaya inteqrasiya edən Azərbaycan yeni hüquq məkanına daxil olduqca bəşəriyyətin əldə etdiyi bütün nailiyyətlərdən bəhrələnir. Qadınlara münasibətdə ayrı-seçkiliyin hər cür formalarının ləğv edilməsi haqqında (1979), Əsirlikdə olan qadınların vətəndaşlığı haqqında (1952), Nikaha daxil olmağa razılıq, nikah üçün minimal yaş həddi və nikahların qeydiyyatı haqqında (1962) Konvensiyalara və digər sənədlərə Azərbaycan Heydər Əliyevin hakimiyyəti dövründə qoşulmaq imkanı əldə etmişdir.

Azərbaycanın qoşulduğu konvensiyaların bəzisinə Avropanın bir sıra ölkələri və hətta ABŞ da qoşulmayıb. Qadınların siyasi hüquqları haqqında konvensiyada qəbul olunmuş qanunların, qoşulduğumuz konvensiyaların müsbət təsirini hər birimiz hiss edirik.

Son on il ərzində baş vermiş sosial proseslər, sosial-iqtisadi sferadakı islahatlar, mədəni-mənəvi intibah Azərbaycan qadınının psixoloji portretini dəyişmişdir.

XX əsrin yekunlarına qiymət verən analitiklər əldə olunan nailiyyətlər içərisində qadınların siyasətə, cəmiyyətin idarə olunmasına cəlb edilməsini xüsusi qeyd edirlər.

Möhtərəm Prezidentimizin sülh məramlı daxili və xarici siaysəti nəticəsində hiss edirik ki, ölkəmizin bütün dünyada tanınması Möhtərəm Prezidentimizin günbəgün yüksələn nüfuzu ilə bağlıdır.

Respublikamız Avropa Şurasına həqiqi üzv seçiləndən sonra Qadın Problemləri üzrə Dövlət Komitəsi də Avropa Şurası ilə əməkdaşlığı Qadınlar və Kişilər arasında bərabərlik üzrə Komitəsi çərçivəsində aparır. Bizim Komitə Qadınlar və Kişilər arasında bərabərlik komissiyasına üzv seçilib.

Əlbəttə, qısa bir zaman üçün bu sadaladıqlarım çox böyük uğurlardır.

Ötən əsrin ayrı-ayrı onillikləri tarix baxımından bir-birindən fərqləndiyi kimi, həmin dövrdə yaşayan insanların, xüsusən qadınların taleyi də xeyli fərqli idi. Bu cəhətdən 70-ci illərin qadınının taleyi yaxşılığa doğru daha çox dəyişilmişdi. O zaman artıq ölkənin qanunvericilik orqanlarında qadınlar irəli çəkilir, yüksək vəzifələrə layiq görülürdülər. Əsrin əvvəlində Azərbaycan qadınları arasında çox az sayda həkim vardısa, Heydər Əliyevin siyasi hakimiyyəti illərində respublika həkimlərinin 62 faizini qadınlar təşkil edirdi. Bununla yanaşı, o illərdə qadınlarımız elmin, sənayenin müxtəlif sahələrində, həmçinin incəsənət, mədəniyyət aləmində ən böyük uğurlarını qazanmışdılar.

Hamıya məlum olduğu kimi, qadınların kişilərlə bərabər hüquqa malik olması, yüksək dövlət vəzifələrində çalışması, lider olması, təhsil alması olduqca vacibdir. Əks təqdirdə qadının idarəetmədə çalışması mümkün deyil. 1974-cü ildə "Azərbaycan qadını" jurnalının 50 illik yubiley təntənəsində çıxış edən Heydər Əliyev qadınların bəzi problemlərinə toxunaraq belə demişdi: "Biz çalışmalıyıq ki, ali məktəblərdə və texnikumlarda daha çox qadın təhsil alsın, elmi fəaliyyətlə məşğul olsun. Xüsusən kənddə qadınlar və uşaqlar arasında bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi problemlərinə biz diqqətimizi xeyli artırmalıyıq".



1975-ci ilin beynəlxalq qadın ili elan olması ilə əlaqədar Azərbaycanda da xüsusi komissiya yaradılmışdır. Həmən komissiyada respublikada qadın əməyinə dair görülmüş işlər müzakirə olunmuşdu. Bu, dünyada qadının nüfuzunun artması demək idi. Böyük siyasi təcrübəyə malik olan Heydər Əliyev həyatın müxtəlif sahələrində çalışan qadınlarımızın elmi fəaliyyətini, əməyini diqqətlə izləyir, onların hüququnun qorunmasında əlindən gələn köməyi əsirgəmirdi.

Möhtərəm Prezidentimiz qadınlar haqqında çox müdrik fikirlər söyləmişdir: "Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi indi də cəmiyyətdə aparıcı rol oynayırlar".

Möhtərəm Prezidentimiz hər çıxışında Azərbaycan qadınının tarixən keçib gəldiyi böyük, şərəfli yoldan, onun yaradıcı dühasından qürurla söz açır. Böyük şəxsiyyət Heydər Əliyevin qənaətinə görə ölkəmizdə qadınlar öz hüquqlarından istədikləri kimi istifadə edirlər. Bizim görkəmli qadın alimlərimiz,yazıçı və bəstəkarlarımız, müğənni və aktrisalarımız, rəssam və heykəltəraşlarımız, həkimlərimiz, incəsənət və dövlət xadimlərimiz arasında adı Vətənimizin hüdudlarından kənarda da hörmətlə çəkilən qadınlarımız var. Azərbaycan ziyalıları əsrlər boyu belə bir əqidənin tərəfdarı olublar ki, əgər qadının təhsil almasına, onun hərtərəfli inkişafına şərait yaradılarsa, o, özünün yüksək intellektual potensiala malik olduğunu sübut edə bilər.

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə ikinci dəfə gəlişi ilə ilk növbədə bizim anaların ürəyi təskinlik tapdı. Çox qısa bir müddətdən sonra 1994-cü ildən ölkəmiz dünyada analoqu olmayan, misli görünməyən uzun müddətli atəşkəsə nail oldu. Analarımızın, bacılarımızın, qız-gəlinlərimizin göz yaşları silindi. Ölkədə əmin-amanlıq, sakitlik yarandı, həyat öz adi axarına düşdü. Dövlət başçımızın bu qayğısı hər birimizdə ölkəmizin sabahına böyük inam hissi oyadır. Heydər Əliyev cənabları ən mötəbər məclislərdəki məruzə və çıxışlarında qadının, ananın ülviliyindən danışır, qadına, anaya hörməti, ehtiramı insanın ali vəzifəsi hesab edir. Ana həyatda hər şeyin başlanğıcıdır, - deyir. Ana Vətəni, ölkəni qorumaq üçün əsgər böyüdür, igidlər, qəhrəmanlar böyüdür. Ana ailənin dağıdır. Hər bir ailənin səadəti, əmin-amanlığı birinci növbədə ananın rolundan və onun fəaliyyətindən çox asılıdır. Cəmiyyətdə anaya qadına hörmətdir!

Bizim dövlət başçımız Möhtərəm Heydər Əliyev cənabları Azərbaycan qadınlarının içtimai fəaliyyətini həmişə yüksək qiymətləndirmişdir: "Mən Azərbaycan qadınlarının dövlət işində də fəaliyyətini xüsusi qiymətləndirirəm. Bu, bir tərəfdən Azərbaycan qadınlarının fəallığıdır, ikinci tərəfdən də Azərbaycanda qadınlara öz istedadlarını, bilik və bacarığını həyata keçirmək üçün, realizə etmək üçün yaranan imkanların nəticəsidir. Məhz ona görədir ki, dövlət orqanlarında qadınlar çox müvəffəqiyyətlə işləyirlər. Müstəqil Azərbaycanın 1995-ci ildə seçilmiş ilk parlamentində, Milli Məclisində 124 deputatdan 12 faizi qadındır. Məlumat üçün bildirirəm ki, dünyanın ən inkişaf etmiş ölkələrində parlament üzvlərinin içərisində qadınların xüsusi çəkisi bu qədər deyildir. Mən buna çox

böyük əhəmiyyət verirəm. Keçmişdə də biz Sovetlər İttifaqının tərkibində olarkən, parlamentimizdə qadınlar var idi. Ancaq biz Azərbaycanın müstəqiliyyini əldə edəndən sonra ilk palamentimizi seçən zaman qadınların parlamentdə çox sayda təmsil edilməsi, seçilməsi, cəmiyyətin qadınlara müvafiq münasibətini göstərir, eyni zamanda qadınların fəallığını nümayiş etdirirdi.

Azərbaycan dövlətinin başçısı Heydər Əliyev cənablarının qadın hərəkatına daha bir diqqəti, köməyi də, 1995-ci ildə qəbul edilmiş ilk Azərbaycan Konstitusiyasında qadınların kişilərlə bərabər hüququnu təsdiq edən maddə və bəndlərində öz əksini tapmasıdır.

Heydər Əliyev cənablarının imzası ilə qəbul edilən qərarların, fərmanların, sərəncamların müəyyən hissəsi qadınlarımızın hüquqlarının qorunmasına xidmət edir. Buna görə də bizim qadınlar rəhbərlərinin simasında özlərinə etibarlı dayaq görürlər.

Möhtərəm Prezidentimiz müstəqil Respublikamızın rəhbərlik etdiyi ilk gündən qadınlara aid imzaladığı fərman və sərəncamlarda, qəbul etdiyi qərarlarda aşağıda sadalanan istiqamətlərin dövlət qadın siyasətinin əsas mahiyyəti hesab edir:

- qadınlara münasibətdə dövlət siyasətinin əsas istiqamətləri, ona müvafiq proqramların hazırlanması;
- qadınların dövlət orqanlarının işində, ölkənin ictimai-siyasi həyatında iştirakı, sahibkarlıq fəaliyyəti, onların yeni ixtisaslara yiyələnməsi, yenidən hazırlığı və ixisaslarının artırılması;
- qaçqın və məcburi köçkün qadınların sosial müdafiəsinin gücləndirilməsi;
- qadınların əmək hüququnun həyata keçirilməsi üçün təşkilati, iqtisadi və hüquqi məsələlə dair;
- qadınların əməyinin, onların həyatının sağlamlığının müdafəsinin, analıq funksiyaları nəzərə alınmaqla təmin edilməsi;
- Beynəlxalq qadın təşkilatları və respublikada fəaliyyət göstərən qeyri-dövlət cəmiyyətləri ilə dövlət strukturlarının qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsi.

Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında fərmanı ölkə qadınlarının gərgin mübarizə dolu həyatına, ictimai fəaliyyətinə verilən yüksək qiymətdir. Burada qadınların rəhbər vəzifələrdə kişilərlə bir təmsil olunması, cender tələblərinə əməl edilməsi ön plana çəkilir.

1998-ci ilin 14-15 sentyabrı! Bu da Azərbaycan qadınlarının həyatında heç vaxt unudulmayacaq əlamətdar bir gündür. Həmin gün xalqımızın ən ləyaqətli qadınlarını təmsil edən xanımlar müstəqil Azərbaycan qadınlarının I qurultayına toplaşmışdı. Məruzələr, bir-birindən maraqlı çıxışlar sübut etdi ki, bu, bir növ Azərbaycan qadınlarının xalqımıza hesabatı idi. Onlar həyatımızın müxtəlif sahələrində qazandıqları uğurlardan söz açdılar, gələcək planlarından, görülməsi vacib olan problemlərdən danışdılar. Prezidentimizin qurultaya təbirikində deyildi: "Hesab edirəm ki, bu qurultay XX əsrdə Azərbaycanın tarixində ən böyük tarixi hadisələrdən biridir. Azərbaycan qadınları bu qurultayla müstəqil Azərbaycanda gələcək qadın hərəkatının əsasını qoyurlar, qadınların cəmiyyətdə fəallığını, onların cəmiyyət və dövlətin həyatında iştirakının əsasını qoyurlar.



Bu gün Azərbaycan öz tarixinin ən çətin dövrlərindən biri olan keçid mərhələsini yaşayır. Və bu çətinlik həyatımızın, demək olar ki, hər sahəsində özünü göstərir. Cəmiyyətin hər bir üzvü də müəyyən mənada bu yükü daşımalı olur. Bu mərhələdə öz ağlı, bilik və istedadına görə dünya qadınları içərisində fərqlənən Azərbaycan qadınlarının vəziyyəti ikiqat çətindir. Bir tərəfdən o, adi məişət qayğıları ilə üz-üzədir, digər tərəfdən ictimai həyatdakı mövqeyi mürəkkəbdir. Buna baxmayaraq vətənpərvər, millətinə, xalqına həmişə sədaqətli qadınlarımız zamanın çətinliklərinə öz zəngin mənəviyyatları ilə dözürlər. Çünki ölkənin problemlərinin həllində fəal iştirak edən Azərbaycan xanımları artıq demokratik cəmiyyətin üzvüdürlər.

Möhtərəm Prezidentimizin Respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə onun imzaladığı hər fərman ya birbaşa, yada dolayısı ilə qadın hüquqlarının müdafiəsinə yönəldilmişdir. Aparılan köklü islahatlar, iqtisadi problemlərin həlli həyatımızın çiçəklənməsi məqsədi daşıyır. Bu isə qadınlarımızın ən böyük istəyi, ülvi arzusudur. Buna görə biz Möhtərəm Prezidentimizə minnətdarıq. Minnətdarıq ki, bizim təəssübümüzü, qayğımızı çəkən belə bir xilaskarımız var. Həm də fəxr edirik ki, bu el atasının həyatı və siyasi fəaliyyəti təkcə bu günümüz üçün deyil, sabahımız, gələcək nəsillərimiz üçün də böyük nümunədir.